**Ərdəbil**

Atmış illik ömrüm oldu səndə bərbad, Ərdəbil!
Bir də namərdəm əgər etsəm səni yad, Ərdəbil!



Zənn edirəm mən bütün aləmdə İrandan səva,
Bir fərəhabad yer yoxdu o samandan səva,
Övrət olmaz hüsündə Fatma, Tükəzbandan səva,

Var imiş Rusiyyədə min-min pərizad, Ərdəbil!
Bir də namərdəm əgər etsəm səni yad, Ərdəbil!

Ey vətən, huri görürdüm səndəki övrətləri,
Derdim ol, hurilərin sənsən yəqin cənnətləri,
İndi heyranam baxıb gördükcə bu löbətləri,

Hər birində başqa ləzzət, başqa bir dad, Ərdəbil!
Bir də namərdəm əgər etsəm səni yad, Ərdəbil!

Haliya Bakıdayam, Baku demə bir xüldzar,
Xassə dərya sahili bir löbətistani-tatar,
Hər tərəf ağ-çağ madamlar, bir birindən gülüzar,

Türfə dilbər, töhfə bir şey, yaxşı bir zad, Ərdəbil!
Bir də namərdəm əgər etsəm səni yad, Ərdəbil!

Min mənim tək kəblayı bir Sonyanın dildadəsi,
Min mənim tək paki-din bir rumkanın ifdadəsi,
Min mənim tək möminin bilməm nolub səccadəsi?

Bəndəlik qeydin qırıb olmuşdur azad, Ərdəbil!
Bir də namərdəm əgər etsəm səni yad, Ərdəbil!

Beş deyil, on beş deyil, hər yan baxırsan, var madam,
Ev madam, mənzil madam, balkon madam, talvar madam,
Sirk madam, qəstin madam, pasaj madam, bulvar madam,

Müxtəsər, əqlim çaşıb, ey dad-bidad, Ərdəbil!
Bir də namərdəm əgər etsəm səni yad, Ərdəbil!

Gərçi İrandan çıxarkən başqa idi niyyətim,
Niyyətim kəsb idi, vardı kəsbi-kara qeyrətim,
Qeyrətim razı deyildi ac dolansın külfətim,

Yox gözümdə indi nə külfət, nə övlad, Ərdəbil!
Bir də namərdəm əgər etsəm səni yad, Ərdəbil!

Bəs ki, artır bunları gördükcə hərdən rəğbətim,
Rəğbətim artırsa da lakin qavışmır həsrətim,
Həsrətim bir şeyədir, ancaq düzəlmir halətim,

Halətim təskini-nəfsə qılmır imdad, Ərdəbil!
Bir də namərdəm əgər etsəm səni yad, Ərdəbil!

Qorxudurdu çıxmamışkən ölkədən qürbət məni,
Çulğayıbmış qəflətimdən vəhşətü dəhşət məni,
İndi bu gürdüklərimdən mat edib heyrət məni,

Özlüyümdən çıxmışam, əfsus!…fəryad!… Ərdəbil!
Bir də namərdəm əgər etsəm səni yad, Ərdəbil!

Tazədən bərgəşt edib bir də cavan olsaydım, ah!…
Şıq geyimli bir cavani-xoşnişan olsaydım, ah!…
Bu pərilərlə doyunca həmzəban olsaydım, ah!…

Dəhrdə beş gün yaşardım xürrəmü şad, Ərdəbil!
Bir də namərdəm əgər etsəm səni yad, Ərdəbil!

---

Mətni yığdı: Nərgiz Abadi
Redaktə etdi və veb üçün hazırladı: Aynurə Hüseynova